Ədalət.- 2022.- 19 fevral.- S.6.

# İsti misralara sığındığım an...

**Masanın üstündəki kitabın adı "Sığallı xatirələr"dir. Onun müəllifi ilə artıq neçə illərdir ki, dostluq edirik. Dostluğumuzun da kökündə Söz dayanır, Poeziya durub. Və bizi də bir-birimizə həmin sözün, poeziyanın işığına şair qardaşım Asim Yadigar təqdim edib. Bu uğurlu təqdimat bizim könüllərimizi, ruhumuzu bir-birinə doğru addım atmağa yönəldib və bir də baxıb görmüşük ki, artıq müraciətimizdə "Siz"dən "Sən"ə keçmişik. Artıq bu həmin o dediyim bünövrənin üstündən pöhrə verən səmimiyyətin özü idi. Bu səmimiyyət də bizi bir-birimiz üçün dəyərli etdiyi kimi də, həm də fikir bölüşməyə, ədəbi mübahisələr etməyə qapı açdı. Ona görə ki, biz sözün çevrəsində, işığında otururduq və oturuRuq...**

Ötən ilin sonlarında Adəm mənə son kitabını bağışladı. Elə buradaca xatırladım ki, xalq şairi Nəriman Həsənzadənin ön sözünün müəllifi olduğu kitabda Adəmin mənə yazdığı həmin o isti avtoqraf özü-özlüyündə bir hədiyyə, bir mükafatdır. Çünki dostun ürək sözüdür və...

İndi keçirəm kitaba... Özdə kitabdakı sonuncu fəsilə, yəni şeir bölümünə. Bu kitab bütövlükdə hekayələr və şeirlər kitabıdır. Və həmin hekayələrin də, şeirlərin də müəyyən hissəsi mətbuatda yer alıb.

Bir oxucu kimi mən bu hekayələrin bəziləri ilə öncədən həmsöhbət olmuşam. Amma indi məqsədim birbaşa yazıçı, şair dostumun şeirlərinə münasibət bildirməkdi. Ona görə də onun şeirlərinə ilk öncə bu adı verərdim:



- İsti misralar...

Ona görə isti misralar fikri ağlıma hakim olub ki, mən sözün həqiqi mənasında müəllifin bu şeirlərdə nəfəsini də, ürək çırpıntısını da duya bilirəm, hiss edirəm. O, sadə sözlərdən səmimi fikir ifadə etmək imkanını ortaya qoyub. Məsələn, onun "Görmədim" şeirində öz həyatı, öz təəssüratı, öz xatirələri və bütün bunlar da doğulduğu kəndin, elin, obanın, oxuduğu məktəbin güzgüsündə əks olmaqla şeirləşibdir. Şeiri oxuduqca müəllifin aid olduğu bölgənin ləhcəsini, leksikonunu saxlamaqla öz xatirələrini nağıl etdiyini müşahidə etmək çox asandır. Və yaxud onun "Adam var ki" şeirində artıq bölgəsindən kənarda, cəmiyyətdə, bütövlükdə isə Yer adlı kürədə bir varlıq kimi mövcud olan Adam - İnsan anlayışlarını şair münasibətini ifadə edir. Bunu öz prizmasından, öz baxış bucağı altında oxucu gözləri qarşısında canlandırır. Məsələn:

*Adam var ki, yaranışdan adamdı,*
*Adam da var, adam bilmir nə desin.*
*Adam var ki, təkcə adı adamdı -*
*Adam da var, heç Allah göstərməsin.*

Şeirin elə ilk bəndindən də göründüyü kimi, adam barəsində mənzərə ortadadı, özü də sadə bir dildə, deyilmiş, yaradılmış mənzərə. Həmin o fondan adam özünün bütün duyğularını, bütün fikirlərini ortaya qoya bilər.

Adəmin şeirlərində mənzərə yaratmaq, mənzərə təqdim etmək çaları hər zaman diqqətimi çəkir. Oxuduqca elə bilmişəm ki, hansısa bir rəsm əsərinə baxıram.




Ona görə də istər onun bütöv şeirlərində, istər dördlüklərində həmin dediyim məqamı diqqətli oxucu dərhal izləyə bilər. Məsələn:

*Cibi boş olmaqdan çox,*
*Qəlbi boş olmaqdan qorx.*
*Süfrən boşsa eybi yox,*
*Təki gözün olsun tox.*

Bu dördlükdə özünü də gördüyünüz kimi, həm nəsihət, həm aforizm var, həm də şeiriyyət, yəni poeziya. Bunlar da adi sözlərlə yazılan, əslində adi rənglərlə çəkilən şəkildi.

**Mən Adəmin bu kitabdakı şeirlərini ovqatına uyğun olaraq demək istəyirəm ki, böyük söz həmişə müəllifdən təkcə istedad yox, həm də o istedadı cilalamaq bacarığı tələb edir. Bu mənada Adəm də Allahın ona verdiyi istedadın əlindən tutub söz yolunda, ağır-ağır irəliləyir. O, qarşısına qoyduğu özünü ifadə etmənin izi ilə gedir. Yəni, oxucu ilə görüşə ürəyini, duyğularını bölüşmək üçün tələsir. Bunun necə alındığını isə xalq şairimiz Nəriman Həsənzadənin təbirincə desək, heç biri oxucunu yormur. Deməli, o, artıq oxucunun müəllifi olmaq hüququnu haqq edib. Bu yolun açıq olsun Adəm Asnı!**

**Əbülfət MƏDƏTOĞLU**